Поиск...

# "Xatirələr bizdən qalanı silib yox edir..." Featured

Rate this item (2 votes)



**"Ədəbiyyat və incəsənət" portalı Ümid Nəccarininin tərcüməsində Laura Qaravaglianın "Correnti Ascensionali" (Yuxarı Axışlar) kitabından şeirlərini oxucularına təqdim edir.**

Laura Qaravaglia Milanda anadan olub və indi Komoda yaşayır. O, şair, jurnalist, tərcüməçi, "La Casa della Poesia di Como ODV"nin təsisçisi və prezidentidir. 2011-ci ildən Komoda təşkil olunan "Europa in versi" Beynəlxalq Poeziya Festivalının direktorudur. O, bir çox dillərə tərcümə edilib, milli və beynəlxalq mükafatlar qazanıb və altı şeir kitabının müəllifidir. Şeirləri bir çox dillərə tərcümə olunur, antologiyalarda və ədəbi jurnallarda çap olunur. O, IQdB nəşriyyatında beynəlxalq müəlliflərin bir sıra şeirlərinin redaktorudur. O, poeziyanın beynəlxalq səviyyədə təbliği işinə görə bir çox mükafatlara layiq görülüb. Dünyanın müxtəlif ölkələrində keçirilən poeziya festivallarına dəvət alır.

**YAZ**

İskele dibindən neft qoxusu,

gövdəsindən dəniz qabıqları çıxır.
Yazın rəngarəng köpüyü
Yuxarı axışlar ilə yüksəlir
ürək haraya yönəlir, bilməz.
Gün işığını sərmiş
yastığın solğun qumaşı qalmış
masanın üstündə Azize Lucianın gözləri,
boynunda bir meduzanın
ağrılı qucaqlaması…

**ZAMAN ÜÇÜN ÇƏKDİYİMİZ OX**

Sona çatacaq, sən yox olacaqsan
əgər yoxluğun bir mənası vardısa.
Zaman da sona çatacaq,
açıqlanmamış formullar kimi.
Səhərin zəif ulduzu
günlərdən taleyini oğurlayır.

**İP**

Çəkilmiş qara bir ip
dəniz qabıqlarından bir boyunbağı
dalğadan qoparılmış qızlar.
Yarpaq, zamanın metronomudur.
Ölü balıq,
gözü bağlı,
çəkilən qara ip qırılıb...

**YAŞLILARIN TƏLƏSKƏNLİYİ**

Artıq çox gec olsa da
Həyatı düzənə salmalıyam
Hər şeyi …
növbəyə riayət etməliyəm
İndi bir ənənəvi xəstəxanaya bənzəyir:
Havanın bənzərsiz təmizliyi,
qəribə gəlsə də
səni qoruyur.

**ADSIZ**

Sonunda,
gahdan bir qədəh şərab içərkən
qəhvə falında kədəri görmək
qalan kim, gedən kim, bilmədən.
Bədənin hər qismindən çox
sözə şəkil verən
yer üzü ilə bəslənən o ağzını sevirəm.

**ANALAR**

≡

Sənə səslənirəm bir qadın və ana səsiylə
Çünki sən də ana və qadınsan,
sən də bilirsən bunu
Nədir xəyal qurmadan yaşamağı,
acının qaranlığında getmək...
Bəli, tanıyırsan, mən də tanıyıram.
İçindəki çırpıntını, içimdəki çırpıntını
Bir yaz günü bir oğulu itirmək,
ətrafda həyat davam edərkən,
işıqlı saatlar axarkən,
ölüm yandırar və sən ona toxuna bilməzsən.
O ağ yolda,
əski bir kin necə iki həyatı məhv etdi.
İyirmi yaşında, günəş altında ölmək
rəhmsizcəsinə...
Oğlun uzaqdaydı və geri döndüyü zaman
Çox dəyişmişdi, bunu hiss edirdim.
Amma bilirdin, mən də bilirdim:
Tanrı adına öldürmək
Boşluq içinə qazı qazmaq kimidir.
İndi isə hər şey artıq,
hər şey gerçəklikdən uzaq.
Ən sevdiyimiz otaqlar qaranlıqda
cavabsız suallar ürəyə yaradır
xatirə bizdən qalanı silib yox edir...

Твитнуть

EDEBIYYAT VE INCESENET © 2021 All rights reserved.